**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ KOLLEGİYASININ**

**Q Ə R A R I**

**20 iyul 2017-ci il** **№ 16**

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyasının 2015-ci il 17 sentyabr tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin müddətinin uzadılması üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumlarının ödəniş hesablaşma hesablarında edilmiş dəyişikliklər ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 18-ci bəndinə əsasən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Kollegiyasının 2015-ci il 17 sentyabr tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin müddətinin uzadılması üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.2.6-cı yarımbənddə "Bakı Vergilər" sözləri "Milli gəlirlər" sözləri ilə əvəz edilsin;

1.2. 2.2.2.8-ci yarımbənddə "1403006271" rəqəmləri "1602473621" rəqəmləri ilə əvəz edilsin;

1.3. 2.2.2.9-cu yarımbənddə "142213" rəqəmləri "142274" rəqəmləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunsun.

**Azərbaycan Respublikası**
**Dövlət Miqrasiya Xidmətinin rəisi**

**II dərəcəli dövlət**
**miqrasiya xidməti müşaviri** **Firudin Nəbiyev**